# Qarabağ Azərbaycandır!



Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 27-28 (7643-7644) · 1933-cü ildən nəşr olunur · Cümə axşamı, 30 dekabr 2021-ci il. · qebele-ih.gov.az gabalanews@mail.ru


# Müzəffər Komandan, modern ordu, peşəkar savaşçı

## İlham Əliyevin ordu quruculuğu prosesi yeni mərhələyə qədəm qoyub



Böyük Zəfərlə bitən İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanda Ordu quruculuğu prosesi daha da modernləşməyə başlayıb.

Bu gün Azərbaycan Silahlı Qüvvələri dövlətin qüdrətinin nümunəsi, xalqın iftixar yeridir. Çünki Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində çox mühüm işlər görülür. İşğaldan azad olunan bölgələrdə xüsusi təyinatlı hərbi hissələrin yaradılması, müasir hərbi texnika və silah-sursatla təchizat bunun əyani təsdiqidir. Yeni yaradılan Komando briqadaları isə müasir yeniliklərdən biridir və Azərbaycanda ilkdir.

Dekabrın 24-də Ali Baş Komandan İlham Əliyevin Hadrutda açılışını etdiyi Komando briqadası ilə tanışlıq zamanı söylədiyi fikirlərə əsasən deyə bilərik ki, ordumuz müasir təkmilləşdirmə prosesindədir.

**Komando briqadası - silahlı qüvvələrin ən etibarlı və seçmə birləşməsi**

Komando briqadasının təyinatına nəzər yetirsək görərik ki, burada yalnız xüsusi təyinatlı hərbçilər fəaliyyət göstərəcək. Bütün ölkələrdə belə xüsusi təyinatlılar demək olar silahlı qüvvələrin ən etibarlı və seçmə birləşməsi sayılır.

Ölkəmizdə xüsusi coğrafi yerlərdə Komando hərbi hissəsinin açılması isə o deməkdir ki, bundan sonra silahlı qüvvələrimiz ərazilərimizin təhlükəsizliyinin təmin olunması üçün daha da təkmilləşəcəklər.

Komando briqadası ən son hərbi avadanlıq və silahla təchiz edilmiş müqavileli mütəxəssislərdən ibarət daim hazırlıqlı, yüksək mobil hava-desant hücum birləşməsidir. Onlar günün istənilən vaxtında həm dağlıq, həm meşəlik ərazilərdə, həmçinin şəhər şəraitində hər an baş verə biləcək silahlı münaqişələrdə dərhal döyüş istifadəsinə hazırdılar. Bu briqadalar təcrid olunmuş və ya əsas qüvvələrdən ayrı qaldığı halda vahid informasiya kommunikasiya məkanında qalıb, döyüş əməliyyatlarını aparmağa qadirdilər.

Prezident də bildirdi ki, Hadrutda bu hərbi hissədə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşir. Komando briqadasının yaradılması bizim üçün yenilikdir. Azərbaycanda bir çox Komando briqadaları yaradılır və onlar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar: “Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, bizim ordumuzun gücünü böyük dərəcədə artıracaq. Bir daha demək istəyirəm ki, belə briqadalar çox olacaq, minlərlə hərbçimiz bu briqadalarda xidmət edəcəklər. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaq”.

**Hadrutdan düşmənə nəzarət olunacaq**

Xocavənd rayonunun Hadrut qəsəbəsində belə bir hərbi hissənin yaradılması çox böyük əhəmiyyət daşıyır. Çünki Prezidentin də qeyd etdiyi kimi, Hadrut keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisinə daxildir. Yəni Hadrut separatçı-terrorçu rejimin tör-töküntülərinin qaldığı ərazilərə çox yaxındır. Bu ərazidən həm separatçılara nəzarət etmək, hətta gələcəkdə antiterror əməliyyatı üçün istifadə etmək olar.

“Bu gün Hadrutda yeni hərbi hissənin açılması bir daha demək istəyirəm ki, çox əlamətdar hadisədir. Həm ona görə ki, bu bölgə strateji əhəmiyyət daşıyır; Hadrutda bizim güclü silahlı birləşməmiz təhlükəsizliyimizi, ölkəmizin təhlükəsizliyini qoruyacaq, - digər tərəfdən ona görə ki, bu, azad edilmiş keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olmuş yerdə yerləşir. Eyni zamanda bu hərbi hissənin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, biz müharibədən sonra ordu quruculuğu prosesini dayandırmamışıq və orduya ayrılan xərcləri azaltmamışıq, əksinə, artırmışıq”.

Təkcə 2022-ci il üçün dövlət büdcəsində müdafiə və təhlükəsizlik xərclərinin 4 milyard 499 milyon 238,9 min manat olması da bunu təsdiqləyən reallıqdır.

Prezident onu da bildirdi ki, müharibədən sonra imzalanmış yeni müqavilələr də icra edilir və artıq Azərbaycan Ordusunun arsenalına ən müasir silahlar, texnikalar gətirilir. Hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması, onların mənzil-məişət problemlərinin həlli də həmişə diqqət mərkəzindədir. Bu ilin sonuna qədər 130 hərbçi ailəsinə yeni mənzillər veriləcək.

Bütün bunlar onu göstərir ki, müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq. Əksinə, müharibə təcrübəsi Azərbaycana güclü və zəif tərəfləri göstərdi. Ona görə də savaşdan sonra ordumuz daha da modernləşir.

Azərbaycan Ordusu daha qüdrətli hərbi gücə çevriləcək

Bu gün işğaldan azad olunmuş ərazilərimizdə müasir hərbi hissələr yaradılır. Müdafiə naziri general-polkovnik Zakir Həsənov “Azərbaycan” qəzetinə verdiyi məxsusi müsahibəsində məhz bu məsələlərə toxunaraq qeyd etmişdi ki, müharibədən sonra Ali Baş Komandan Azərbaycan Ordusu qarşısında yeni tapşırıqlar qoyub və hərbi islahatların növbəti mərhələsinin başlanması barədə göstəriş verib.

Nazirin sözlərinə görə, Prezident İlham Əliyev modernləşmə, silahlanma və hazırlıq sahələrində ordunun ən yüksək göstəricilərə sahib olması üçün konkret plan və tədbirlər hazırlayıb, onların təxirəsalınmaz icrasını tapşırıb: “Ali Baş Komandanın etimadını ən böyük məsuliyyət kimi qəbul edən Azərbaycan Ordusu islahatların yeni mərhələsi nəticəsində daha da güclənəcək, tam modern və qüdrətli hərbi gücə çevriləcək”.

Ümumiyyətlə, peşəkar ordunun formalaşdırılması çoxşaxəli prosesdir. Bunun üçün uzun illər, bəzən onilliklər tələb olunur. Bu işi yüngülləşdirən və əvvəlcədən də nəticənin uğurlu olacağına təminat verən amil Ali Baş Komandanın ordu quruculuğunu prioritet məsələ elan etməsi, bu proseslə bağlı səmərəli ideyaların, aydın təsəvvürlərin və onun rəhbərliyi altında aparılan hərbi islahatların, atılan addımların konkret istiqamətləri üzrə dəqiq proqramın olmasıdır. Həmçinin yeni hərbi islahatlar və quruculuq tədbirləri birbaşa olaraq Prezidentin şəxsi nəzarəti, diqqəti və himayəsi altındadır. Bu isə, ilk növbədə, məsuliyyət, səmərəlilik və şəffaflıq kimi meyarların təmin edilməsini nəzərdə tutur.

Bu gün Azərbaycan regionda ən güclü orduya malik ölkə statusunu daşıyır. Cənubi Qafqazda ən

(Ardı 2-ci səhifədə).